# Baş xüsusi müəllim üçün peşə bacarıqları testi

Təlimat

Testin elektron bukleti qarşınızdadır.

Testdə 3 tip tapşırıq var:– seçim, uyğunluq və açıq (cəmi 40 tapşırıq).

Testin maksimal balı 54-dür.

Hər tapşırıq blokunun əvvəlində təlimat verilib. Hər birini diqqətlə oxuyun, sizdən nə tələb edildiyini yaxşı dərk edin, sonra cavabı seçin və ya yazın.

Test üzərində işləmək üçün sizə 4 saat vaxt verilir.

Sizə uğurlar arzu edirik!

Növbəti səhifəyə keçmək və geriyə qayıtmaq üçün klaviaturada mövcud olan düymələrdən istifadə edə bilərsiniz:

- Bəzi tapşırıqlar bir səhifəyə yerləşmir; belə hallarda ikinci səhifəni tapmaq üçün Tapşırığın nömrəsinə "a" latın hərfi əlavə olunur.

## Təlimat

Seçim tipli tapşırıqların dörd ehtimal olunan cavabı var. Onlardan yalnız biri doğrudur. Tapşırığın mahiyyətini daha yaxşı başa düşmək üçün sualda altından xətt çəkilən, tünd rənglə göstərilən ifadələrə diqqət yetirin.

*Seçim tipli tapşırıqlar bir ballıqdır.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 1**

Xüsusi müəllim il ərzində xüsusi təhsilə ehtiyacı olan şagirdlə fərdi olaraq işləyir. O hesab edir ki, intensiv cəhdlərə baxmayaraq, şagird qısamüddətli fərdi məqsədlərə doğru irəliləyiş göstərmir.

Təsvir olunan vəziyyətdə müəllim **ilk olaraq**:

ა) Şagird üçün qoyulan məqsədləri və təlim metodlarını təhlil etməlidir. Ola bilsin ki, onlar şagirdin imkan və ehtiyaclarına uyğun deyil.

ბ) Başqaları ilə müqayisədə şagirdə daha çox vaxt verməli və onunla işləməyə davam etməlidir. Ola bilsin ki, onun öyrənmə tempi sinif yoldaşları ilə müqayisədə yavaşdır.

გ) Məqsəd və fəaliyyətləri azaltmalıdır, eyni fəaliyyətlərlə yalnız bir və ya iki məqsəd üzərində işləməlidir. Eyni vaxta bir neçə məqsəd üzərində işləmək şagird üçün çaşdırıcı ola bilər.

დ) Strukturlaşdırılmış yanaşma və nizam-intizam tətbiq etməli, şagirdi daha çox səy göstərməyə təşviq etməlidir. Ola bilsin ki, şagird öyrənməyə səy göstərmir və motivasiyaya ehtiyacı var.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 2**

Xüsusi təhsilə ehtiyacı olan şagird sosial siqnalların düzgün şərh olunmasında çətinlik çəkir, ona görə də ətrafındakılarla ünsiyyət qurmaqda problemlər yaranır.

Müəllim bu problemin öhdəsindən gəlmək üçün şagirdə **ən çox** hansı fəaliyyət ilə kömək edəcək?

ა) Müəllim şagirdlərə oyun təklif edir: şagirdlər bədən dili və səs tonunu dəyişərək müxtəlif emosiyalar ifadə etməlidirlər, qalanları isə düşünülən emosiyanı tapmalıdırlar.

ბ) Müəllim şagirdlərə qrup fəaliyyəti təklif edir: şagirdlərə müxtəlif sosial problemlər əks olunan mətnlər paylayırlar. Onlar vəziyyətləri müzakirə etməli və personajın davranışlarının doğru olub-olmadığını qiymətləndirməlidirlər.

გ) Müəllim şagirdlərə tapşırıq verir: şagirdlər hansı sosial vəziyyətdə necə emosiyaya sahib olduqları, nə zaman acıqlanıb, nə zaman sevindikləri haqqında müzakirə aparmalıdırlar.

დ) Müəllim təqdimat edir: o şagirdlərə sosial siqnalların nə demək olduğunu izah edir, mövzu haqqında nəzəri biliklər verir və müvafiq misallar gətirir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Tapşırıq N 3

Xüsusi təhsilə ehtiyacı olan şagirdin əlləri əsir, bu da yazı tapşırıqlarının yerinə yetirilməsinə mane olur. Verilmiş vəziyyət üçün Milli Tədris Planının sadalanan akkomodasiya formalarından hansı **ən effektiv** olacaq?

ა) Müəllim şagirdə verilmiş mətndən eyni sözü dəfələrlə dəftərə köçürməsini tapşırsın.

ბ) Müəllim şagirdə yazmaq əvəzinə, tapşırığın məzmununa uyğun illüstrasiyaları rənglətdirsin.

გ) Müəllim şagirdə əvvəlcədən nöqtələrlə yazılmış sözlərin konturlarını qələmlə birləşdirtsin.

დ) Müəllim şagirdə tapşırıqlarını yazı əvəzinə audioyazılar şəklində hazırlatsın.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Tapşırıq N 4

Disleksiyası olan şagird riyaziyyat dərsində özü oxuduğu məsələnin şərtini başa düşə bilmir. Müəllimin məqsədi məsələnin şərtini şagirdin müstəqil olaraq başa düşməsinə kömək etməkdir.

Müəllimin sadalanan fəaliyyətlərindən **ən çox** hansı oxuduğunu dərk etməkdə şagirdə kömək edəcək?

ა) Müəllim şagirdə bir neçə dəfə məsələnin şərtini oxutdurur və onu dərk etmək üçün əlavə vaxt verir.

ბ) Müəllim məsələnin şərtini şagird üçün yazı taxtasına yazır və sonra riyazi əməlləri deyir.

გ) Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdi yazı taxtasına çıxardır və məsələnin şərtini yüksək səslə oxutdurur, digər şagirdlərdən isə əks-əlaqə vermələrini xahiş edir.

დ) Müəllim şagirdə oxumaq üçün vizual sxemləri və tünd rənglə göstərilmiş açar sözləri ehtiva edən mətn verir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 5**

Sinifdə artikulyasiya problemli nitq inkişaf pozuntusu olan şagird var. Sinif yoldaşlarından bir neçəsi lağa qoymaq məqsədi ilə sözləri onun kimi deyir, ona görə də bu şagird onlarla ünsiyyət qurmaqdan boyun qaçırır və məktəbə getmək də istəmir.

Müəllim şagirdlər arasındakı münasibəti sadalanan fəaliyyətlərdən **ən çox** hansını istifadə edərək qaydaya sala biləcək?

ა) Müəllim şagirdlərə onlar üçün mühüm olan həyat hekayələrini yazdırır, sonra onlara bir-birinin yazılarını oxutdurur və xahiş edir ki, onlarda yaranan emosiyalardan danışsınlar.

ბ) Müəllim sinif rəhbəri üçün nəzərdə tutulan saatı bullinq haqqında söhbətə ayırır, şagirdlərə xəbərdarlıq edir ki, əgər alçaldıcı davranışlara son verməsələr, valideynlərə bildirəcək.

გ) Müəllim mövzud vəziyyət haqqında sinifdə danışır, sinif yoldaşına lağ edən şagirdlərdən öz hərəkətlərini izah etmələrini və üzr istəmələrini xahiş edir.

დ) Müəllim nitq pozuntusu olan şagirdlə söhbət edir, ondan xahiş edir ki, sinif yoldaşlarının lağ etmələrinə fikir verməsin və izah edir ki, bu yolla onların öhdəsindən daha yaxşı gələ bilər.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Tapşırıq N 6

* Tapşırığın davamına növbəti səhifədə baxın

Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin təfəkkürünü qiymətləndirmək qərarına gəldi. Bunun üçün o, müxtəlif tapşırıqlardan istifadə etdi. Sadalanan tapşırıqlardan hansını istifadə etməklə müəllim şagirdin təfəkkürünü qiymətləndirə **bilməyəcək?**

ა) „Bir-biri ilə əlaqələndir“




ბ) „Bir-biri ilə əlaqələndir“



1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

ვ) „Bir-biri ilə əlaqələndir“



ღ) „Bir-biri ilə əlaqələndir“



**Tapşırıq N 7**

İnklüziv təhsilin mahiyyəti sadalanan mülahizələrdən hansında düzgün əks olunub?

ა) Xüsusi təhsilə ehtiyacı olan şagirdlər müxtəlif bacarıqlarını inkişaf etdirmək üçün resurs otaqda xüsusi müəllim, fərdi assistent və/və ya psixoloq xidmətindən faydalanırlar.

ბ) Dərs prosesinin gedişatı zamanı sinif hər hansı tapşırığı yerinə yetirərkən fənn müəllimi paralel olaraq, xüsusi təhsilə ehtiyacı olan şagirdlə fərqli fəaliyyətlər üzərində işləyir.

გ) Bəzən xüsusi təhsilə ehtiyacı olan şagirdlər fərdi davamiyyət cədvəlindən faydalanırlar, onlar üçün əvvəlcədən müəyyən olunmuş zaman ərzində sinfə daxil olurlar və orada yalnız az vaxt keçirirlər.

დ) Müəllimlər sinifdə əməkdaşlıq strategiyalarından istifadə edirlər və sinif yoldaşları ilə birlikdə xüsusi təhsilə ehtiyacı olan şagird də müxtəlif fəaliyyətlərdə iştirak edir, burada onların hər biri müvafiq dəstək alır.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Tapşırıq N 8

Xüsusi təhsilə ehtiyacı olan şagirdin vizual diskriminasiya problemi var.

Şagird oxu zamanı aşağıda sadalanan səhvlərdən hansını edə bilər?

ა) Ola bilər ki, şagird oxşar yazılan hərfləri bir-biri ilə qarışdırsın.

ბ) Ola bilər ki, şagird sözdə səslərin ardıcıllığını müəyyən edə bilməsin.

გ) Ola bilər ki, şagird oxuduğu hərfləri söz olaraq birləşdirə bilməsin.

დ) Ola bilər ki, şagird verilmiş sözdə hərflərin sayını deyə bilməsin.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 9**

Xüsusi təhsilə ehtiyacı olan şagird statusunun verilməsi üçün şagirdin mütləq olmalıdır:

ა) Şagirdin sağlamlıq vəziyyətinə mənfi təsir göstərən və onun öyrənmə çətinliklərini şərtləndirən tibbi diaqnozu.

ბ) Şagirdin öyrənmə keyfiyyətinə təsir göstərən və onun akademik nailiyyətlərində mənfi olaraq əks olunan psixi sağlamlıqla əlaqəli əhəmiyyətli problemlər.

გ) Şagirdin təlimi zamanı əlavə dəstək tələb edən təlim və/ və ya tədris mühitinin əlçatanlığı ilə əlaqədar əhəmiyyətli çətinliklər.

დ) Şagirdin təlimi ilə əlaqədar çətinliklərə səbəb olan intellektual pozuntu və onunla əlaqəli hər hansı vəziyyət.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 10**

Müəllim qarşısına görmə qabiliyyəti olmayan şagirdə „planet“, „ulduzlar“, „Ay“ kimi anlayışları başa düşməyə kömək etmək məqsədi qoydu. Müəllimin sadalanan hərəkətlərindən **ən çox** hansı şagirdin məqsədə çatmasına kömək edəcək?

ა) Müəllim şagirdə ətraflı şəkildə izah edir ki, insanlar Yer planetində yaşayırlar, kosmosda başqa planetlər də var, gündüzlər Günəş parıldayır, Ay isə yerin ətrafında fırlanan səmavi cisimdir və gecə parıldayır.

ბ) Müəllim görmə qabiliyyəti olmayan şagirdə planetlər, ulduzlar və ay haqqında Brayl əlifbası ilə çap olunan mətn təklif edir, burada hər biri haqqında məlumat verilmişdir.

გ) Müəllim şagirdə müxtəlif resurslar təklif edir və ondan təsəvvür etdiyi kimi planet, Ay və ulduz təsvirləri hazırlamasını xahiş edir.

დ) Müəllim tanış etmək üçün şagirdə Günəş sisteminin, ulduzların və Ayın taktil modellərini təklif edir və ona hər birinin adını deyir. Bununla yanaşı, hər bir anlayışla əlaqəli səslərə qulaq asdırır, məsələn, planetlərin fırlanmasına və s.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 11**

Sadalanan fəaliyyətlərdən hansının yerinə yetirilməsi şagirddən işçi yaddaşının istifadə olunmasını tələb edir?

ა) Şagird qulaq asdığı rəqəmlərin sırasını ardıcıllığın tərsinə təkrarlayır.

ბ) Şagird məktəbdən evə və əksinə, evdən məktəbə qədər olan yolu xatırlayır.

გ) Şagird dərsin əvvəlində qulaq asdığı mətni dərsin sonunda xatırlayır.

დ) Şagird evdə qayıtdıqdan sonra müəllimin verdiyi tapşırığı xatırlayır.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 12**

Xüsusi müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin funksional bacarıqları üzərində işləmək məqsədi qoydu.

Sadalanan fəaliyyətlərdən **ən çox** hansı şagirdin funksional bacarıqlarının inkişaf etdirilməsinə kömək edəcək?

ა) Süjetli kartların təsvir olunması və sonra onların boyanması.

ბ) Şəkildə səhər proseduru üçün lazım olan əşyaların tapılması.

გ) Plastilinlə tortun hazırlanması və oyuncaqlarla süfrənin açılması.

დ) Konturlara riayət edərək meyvə və tərəvəzin kəsilməsi, sonra onların qruplaşdırılması.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20

21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 13**

Xüsusi təhsilə ehtiyacı olan şagirdin öyrənmə ilə əlaqədar çətinlikləri var.

Onların öhdəsindən gəlmək ilkin idarə etmə planının hazırlanması ilə başlayır.

Öyrənmə ilə əlaqədar çətinliyin ilkin idarəetmə planının məqsədi:

ა) Şagirdin valideyninin iştirakı ilə təlim məqsədlərinin müəyyən edilməsidir.

ბ) Şagirdin ehtiyaclarının müəyyən edilməsi və müvafiq tədris mühitinin yaradılmasıdır.

გ) Şagirdin imkanlarını nəzərə alaraq fərdi təlim planının hazırlanmasıdır.

დ) Şagirdin akademik nailiyyətlərinə uyğun olaraq əlavə dərslərin təyin olunmasıdır.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 14**

Xüsusi təhsilə ehtiyacı olan şagird uzun tapşırıqları yerinə yetirməkdə çətinlik çəkir, buna görə də bu tapşırıq üzərində işləməyi dayandırır və yeni tapşırığa keçir.

Müəllim bu problemin öhdəsindən gəlmək üçün hansı fəaliyyət/fəaliyyətlər ilə şagirdə kömək edəcək?

I. Müəllim şagird üçün tapşırığın vizual planını tərtib etsin və hər bir uğurla keçilən mərhələdən sonra fasilə versin.

II. Müəllim yerinə yetirilməmiş tapşırıqları yenidən yazdırsın və hər bir tapşırığın axıra qədər tamamlanmasına diqqət yetirsin.

III. Müəllim tamamlanmamış tapşırıqlar üçün heyfslənsin və şagirddən daha çox istək göstərməsini xahiş etsin.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 15**

Tipik inkişafa malik şagirdin valideyni övladının sinfində mürəkkəb davranışlı şagird olduğuna görə xüsusi müəllimə narazılığını bildirdi.

Aşağıdakı fəaliyyətlərdən hansı valideynin məlumatlılığını artırmaqda müəllimə kömək edəcək?

ა) Xüsusi müəllim valideynə hər bir şagirdin sosial-emosional inkişafı üçün inklüziv təhsilin əhəmiyyətindən danışmalıdır.

ბ) Xüsusi müəllim valideynə izah etməlidir ki, qanunla hər bir şagirdin təhsil almaq hüququ var və bu prosesdə heç nəyi dəyişdirə bilməz.

გ) Xüsusi müəllim qeyri-tolerant mövqeyinə görə valideynə narazılığını bildirməli və ona öz məsuliyyətlərini xatırlatmalıdır.

დ) Xüsusi müəllim valideynə şagirdin vəziyyətini izah etməli və ondan daha çox mərhəmət göstərməsini xahiş etməlidir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20

21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Təlimat

Uyğunluq tipli tapşırıqlar cədvəl şəklində verilmişdir. Cədvəl iki sütundan ibarətdir. Bir sütunda şərt, digərində isə ehtimal olunan cavablar verilmişdir. Sütunda verilən məlumatı bir-birinə uyğunlaşdırmalı və cavabı cavablar vərəqindəki cədvəldə qeyd etməlisiniz. Cavabın bütün variantlarını mütləq oxuyun. Nəzərə alın ki, onlardan hansı isə iki şərtə uyğun gələ və ya heç birinə uyğun gəlməyə bilər.

*Uyğunluq tipli tapşırıqlar bir ballıqdır.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 16**

A sütununda məqsədlər, B sütununda isə verilmiş məqsədə çatmaqda aparıcı rol oynayan bacarıqlar təqdim olunmuşdur. Onları bir-birinə uyğunlaşdırın.

| Məqsəd (A) | Bacarıq (B) |
|---|---|
| I. Şagird tapşırığın sonunadək təlimatı yadda saxlamalı və ona əməl etməlidir. | ა) Diqqət<br>ბ) Təfəkkür |
| II. Şagird obyektləri elə qruplaşdırmalıdır ki, o, eyni vaxtda iki xüsusiyyəti nəzərə alsın. | |
| III. Şagird məişət hadisələri ilə əlaqədar süjetli kartları ardıcıllıqla düzə bilməlidir. | |

**Uyğunluqları cavablar vərəqindəki cədvəldə qeyd edin. Aydın şəkildə yazın.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 17**

Şagirdin kəskin davranış çətinliklərinə görə məktəbdə yaranan böhran vəziyyətlərinin aradan qaldırılması üçün müxtəlif strategiyalardan istifadə olunur. B sütununda böhran vəziyyətlərinin aradan qaldırılması üçün strategiyalar, A sütununda isə müəllimin həyata keçirdiyi fəaliyyətlər təqdim olunmuşdur. Onları bir-birinə uyğunlaşdırın.

<table>
<tr><th>Müəllimin fəaliyyəti (A)</th><th>Strategiya (B)</th></tr>
<tr><td>I. Şagirdlər bir-birinə kağızdan düzəldilmiş toplar atırlar. Müəllim şagirdlərin diqqətini maraqlı fəaliyyətə yönəldir və davranışlarını belə dayandırır.</td><td rowspan="3">ა) Mürəkkəb davranışın prevensiyası<br><br>ბ) Mürəkkəb davranışın deeskalasiyası</td></tr>
<tr><td>II. Müəllim bilir ki, iki şagird yan-yana oturan zaman, sistematik şəkildə konflikt yaranır. O, dərs başlayan kimi bu şagirdləri bir-birindən uzaqda əyləşdirir.</td></tr>
<tr><td>III. Müəllim idman dərsində oyunu uduzduğuna görə acıqlanan və sinif yoldaşlarına istehza edən şagirdi təsəlli edir. Müəllimin təsəllisi ilə şagird sakitləşir və problemli davranışını dayandırır.</td></tr>
</table>

**Uyğunluqları cavablar vərəqindəki cədvəldə qeyd edin. Aydın şəkildə yazın.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 18**

Ünsiyyət ilə əlaqəli problemlərə həm autizm spektri pozuntusu, həm də dil və nitq inkişafının pozuntuları səbəb ola bilər.

B sütununda vəziyyətlər, A sütununda isə onlar üçün xarakterik olan simptomlar verilmişdir. Onlar bir-birinə uyğunlaşdırın.

<table>
<tr><th colspan="2">Simptom (A)</th><th>Vəziyyət (B)</th></tr>
<tr><td>I.</td><td>Uşaq başqası tərəfindən başladılan əlaqələrə qoşulmur və onun ünsiyyəti resiprokal deyil.</td><td rowspan="3">ა) Autizm spektri pozuntusu<br><br>ბ) Dil və nitq inkişafı pozuntusu</td></tr>
<tr><td>II.</td><td>Uşaq başqaları ilə ünsiyyət zamanı və /və ya öz ehtiyaclarını ifadə edən zaman kontekstə uyğun olmayan, eyni ifadələri tez-tez təkrar edir.</td></tr>
<tr><td>III.</td><td>Uşaq başqasının dediyini anlamaqda çətinlik çəkir və qeyri-verbal ünsiyyət işarələrinə əsaslanaraq ona nə deyildiyini anlamağa çalışır.</td></tr>
</table>

******Uyğunluqları cavablar vərəqindəki cədvəldə qeyd edin. Aydın şəkildə yazın.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Təlimat

Açıq tipli tapşırıq verilmiş mövzu haqqında arqumentli müzakirə tələb edir. Tapşırığın şərtini və sualını diqqətlə oxuyun. Nəzərə alın ki, cavabınız konkret və suala uyğun olmalıdır.

Cavabınızı cavablar vərəqində tapşırığın uyğun nömrəsi boyunca xüsusi olaraq ayrılmış yerə yazın. Tapşırıq üçün nəzərdə tutulmuş sahədən kənara çıxmayın.

*Açıq tipli hər tapşırıq boyunca maksimal bal göstərilmişdir.*

*Nəzərə alın: açıq tipli tapşırığı cavablandırarkən diskriminativ terminlərdən istifadə etsəniz, 1 bal itirəcəksiniz.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 19**

*Maksimal bal – 3*



*„... Xani xanım oğlanı yanında əyləşdirdi və bizə müraciət etdi:*

*– Gənclər, bu Ahmetdir, bu gündən bizim sinifdə oxuyacaq. Dərsə başlmazadan əvvəl yeni köməkçimlə tanış olmağınızı istəyirəm. Hemsi xanım bu gündən Ahmetə kömək edəcək.*

*Xani xanım sakitcə bizə izah etdi ki, yeni oğlan bir müddət ayrı durmalıdır.*

*Yeni gələn oğlanı bütün gün ərzində gizlicə izləyirdim. Gördüm ki,yalnız mən deyil, bütün sinif belə edirdi. Ceni danışırdı ki, yeni oğlan bütün fasilələri direktorun otağında keçirir. Aydındır ki, köhnə məktəbində nə isə pis iş görüb və indi onun bizimlə birlikdə həyətə buraxılması çox təhlükəlidir.*

*– Bu „təcridolunma“ nə deməkdir? – Cozi soruşdu.*

*Maykl güman etdi ki, yeni oğlanın xəstəxanadakı xəstələr kimi tək qayğıya ehtiyacı var“.*

*Oncal Raufun „Sinifimizin arxa partasındakı oğlan“ əsərinə əsasən,*
*Bakur Sulakauri nəşriyyatı, 2021-ci il.*

– Şagirdlərdə xüsusi təhsilə ehtiyacı olan şəxslərə qarşı stiqmanın azaldılması və aradan qaldırılmasına kömək edəcək bir strategiya təsvir edin.

– Təsvir etdiyiniz strategiyanın effektivliyini sübut edin.

***Cavabı cavablar vərəqində  tapşırığın müvafiq nömrəsi boyunca yazın.***

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 20**

*Maksimal bal – 3*

Xüsusi təhsilə ehtiyacı olan şagird üçün ixtisaslı dəstək onun ehtiyaclarına maksimum şəkildə uyğunlaşdırılmış və şagirdin tam iştirakını təmin edən mühitdə mümkündür. Müvafiq olaraq, xüsusi müəllimin davamlı peşə təhsilinə qayğı göstərməsi mühümdür.

Xüsusi müəllimin peşəkar özünüinkişafı üçün, ilk növbədə, öz işini təhlil etməsi və qiymətləndirməsi vacibdir.

- Xüsusi müəllimin özünüqiymətləndirməsinin metodlarından birini təsvir edin.
- Onun peşəkar özünüinkişafı üçün necə istifadə edilə biləcəyini izah edin.

***Cavabı cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca yazın.***

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

## Tapşırıq N 21

*Maksimal bal – 3*

*Sinifdə Turet sindromlu şagird var. Ona xas olan motorik və vokal tiklərə görə, tez-tez sinifdə sinif yoldaşlarının gülüş obyektinə çevrilir. Buna görə də şagirdin valideyni çox narahatdır.*

*Dialoqla tanış olun:*

*Valideyn: Övladımın probleminə görə sinifdə tez-tez qəribə vəziyyət yarandığını təsəvvür etmək mənim üçün həqiqətən də çox çətindir. Düşünürəm ki, bu vəziyyət övladımda emosional narahatlıq yaradır.*

*Müəllim: Bəli, nəyi nəzərdə tutduğunuzu çox yaxşı bilirəm, sizi başa düşürəm, övladınız haqqında hər şeyi bilirəm və məsləhətlər belə hazırlamışam, uşaqlarla isə mütləq danışacağam.*

- Müəllimin valideynlə ünsiyyət zamanı fəal dinləmə baxımından hansı səhvi buraxdığı haqqında mülahizə yürüdün.
- Valideynlə bu cür ünsiyyətin nəyə səbəb ola biləcəyini izah edin.

***Cavabı cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca yazın.***

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

# Təlimat

Seçim tipli tapşırıqların dörd ehtimal olunan cavabı var. Onlardan yalnız biri doğrudur. Tapşırığın mahiyyətini daha yaxşı başa düşmək üçün sualda altından xətt çəkilən, tünd rənglə göstərilən ifadələrə diqqət yetirin.

*Seçim tipli tapşırıqlar bir ballıqdır.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 22**

Xüsusi müəllim görmə pozuntusu olan şagirdin funksional görmə qabiliyyətini qiymətləndirməyə qərar verdi.

Funksional görmə qabiliyyətinin qiymətləndirilməsinin məqsədi:

ა) Şagirdin müxtəlif fəaliyyətlərin yerinə yetirilməsində görmə qabiliyyətini necə istifadə etdiyini və çətinlikləri aradan qaldırmaq üçün hansı təbii strategiyalardan istifadə etdiyini müəyyən etməkdir.

ბ) Şagirdin görmə zəifliyinin dərəcəsininin necə olduğunu və onun şagirdin özünüqiymətləndirmə və sosial əlaqələrinə necə təsir etdiyini müəyyən etməkdir.

გ) Şagirddə görmə pozuntusunun hansı tipinin mövcud olduğunu və müvafiq olaraq ən yaxşı müalicə metodunun seçilməsini müəyyən etməkdir.

დ) Şagirdin görmə zəifliyinin dərəcəsindən irəli gələrək, onun görmə funksiyasını tam və ya qismən bərpa etməyin mümkün olub-olmadığını müəyyən etməkdir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 23**

Xüsusi təhsilə ehtiyacı olan autizmli şagird başqalarının dediklərini anlamaqda çətinlik çəkir. O, müəllimin suallarına cavab vermir və onun verdiyi təlimatları yerinə yetirmir.

Müəllimin aşağıda sadalanan fəaliyyətlərindən **ən çox** hansı təlimatları başa düşmək üçün şagirdə kömək edəcək?

ა) Müəllim təlimatları aydın artikulyasiya ilə deyir və şagirddən xahiş edir ki, müəllimin dediyini asanlıqla anlamaq üçün onun dodaqlarının hərəkətini diqqətlə müşahidə etsin.

ბ) Müəllim təlimatları konkret vizual təsvirlərlə cütləşdirir və hər bir təlimatı verən kimi məzmun olaraq onunla əlaqəli kartı şagirdə göstərir.

გ) Müəllim şagirdə təlimatları təkrar etməsini təklif edir və ondan xahiş edir ki, asan yadda saxlamaq üçün onların hər birini təxəyyülündəki vizual təsvirlə əlaqələndirsin.

დ) Müəllim sinif üçün verilmiş təlimatı bir neçə dəfə şagirdə fərdi olaraq oxuyur və hər təkrar etdikdə onun dediyinin məzmununu başa düşüb-düşmədiyini yoxlayır.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 24**

Müəllim intellektual pozuntusu olan şagird üçün təlim resursu seçən zaman hansı prinsipə/prinsiplərə əsalanmalıdır?

I. Resurs şagirdin müxtəlif duyğu kanallarını stimullaşdırmalı, lakin stimullaşdırma həddindən artıq olmamalıdır.

II. Resurs fənnin xüsusiyyətinə uyğun olmamalı, lakin mütləq şagirdin imkanlarına uyğunlaşdırılmalıdır.

III. Şagirddə resursla əlaqəli əlavə suallar yaranmaması üçün o, sadə və asan istifadə oluna bilən olmalıdır.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 25**

İmla yazarkən şagird səhvlər buraxır. Məsələn, əgər “şırhaşır”, deyirlərsə, o, “sırhasır” yazır. Müəllim ona səhv yazdığını göstərdikdə səhvin nədə olduğunu anlaya bilmir.

Təsvir olunan problemə **ən çox** hansı bacarıqla əlaqəli çətinlik səbəb olur?

ა) Göz və əl koordinasiyası

ბ) Audial diskriminasiya

გ) Vizual diskriminasiya

დ) Eşitmə diqqəti

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 26**

Belə bir fikir mövcuddur ki, autizm spektri pozuntusunu müəyyən etmək üçün diferensial diaqnostika mütləqdir.

Verilmiş fikir:

ა) **Doğrudur,** çünki diferensial diaqnostika mütəxəssisə qısa müddətdə effektiv şəkildə qiymətləndirmək və autizm spektri olan şəxsin simptomlarının ağırlıq dərəcəsini dəqiq müəyyən etmək imkanı verir.

ბ) **Doğru deyil,** çünki diferensial diaqnostika yalnız uşaq danışa bilmədikdə lazım gəlir. Autizm spektri pozuntusu zamanı isə onun, ümumiyyətlə, dil və nitq problemi olmaya bilər.

გ) **Doğrudur,** çünki autizm spektrinə xas olan simptomlar başqa vəziyyətlərdə də ola bilər və mütəxəssis onları autizm spektrindən ayırd edə bilməlidir.

დ) **Doğru deyil,** çünki bir qayda olaraq, autizm spektri olan bütün uşaqlarda həm davranış, həm də bacarıqların inkişaf etməsi baxımından eyni cür simptomlar olur. Müvafiq olaraq, diferensial diaqnostika lazım deyil.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 27**

Şagirdin uşaq bağçasından məktəbə keçidi düzgün planlaşdırılmalı olan mühüm prosesdir. Keçid bir neçə mərhələdən ibarətdir.

Valideynin sadalanan fəaliyyətlərindən hansı keçidin ilk, hazırlıq mərhələsini əks etdirir?

ა) Valideyn uşağı ilk dərs günü aparır və sinif rəhbərinin nəzarəti altında sinif yoldaşlarının mühitinə qoyur.

ბ) Valideyn dərsin başlamasına bir neçə ay qalmış vaxtaşırı uşağı məktəbə aparır, ətraf-mühiti gəzdirir, sinif rəhbəri ilə tanış edir.

გ) Valideyn dərs başladıqdan bir həftə ərzində uşağı məktəbə aparır və onu resurs otağa işləmək üçün xüsusi müəllimin yanına qoyur.

დ) Valideyn dərs başladıqdan bir ay ərzində uşağı seçilmiş dərslərə aparır və dərs ili bitənədək mərhələli şəkildə dərslərin sayını artırır.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20

21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 28**

İbtidai sinif şagirdində ADHD sindromu var. O, dərsin sonunadək bir yerdə dayanmaqda çətinlik çəkir. Xüsusi müəllim isə hesab edir ki, mürəkkəb davranışı ilə şagird sadəcə olaraq dərsdən yayınmaq istəyir, çünki valideynin dediyinə görə, uşaq evdə fərqli davranır.

Müəllimin bu fikri:

ა) **Doğrudur,** çünki əgər şagirddə ADHD sindromu varsa, onun mürəkkəb davranışı məktəb mühitindən daha çox sərbəst məkanda özünü göstərməlidir.

ბ) **Doğru deyil,** çünki ADHD sindromu həyatın bütün sahələrinə təsir göstərir, lakin müxtəlif vəziyyətlərdə fərqli şəkildə üzə çıxır.

გ) **Doğrudur,** çünki əgər ADHD sindromlu uşaq evdə arzuolunan davranış sərgiləyirsə, başqa vəziyyətlərdə də davranışına nəzarət edə bilər.

დ) **Doğru deyil,** çünki bu ADHD sindromu ilə şərtlənən deyil, daha çox yaş xüsusiyyətinin səbəb olduğu davranışdır.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 29**

Xüsusi təhsilə ehtiyacı olan şagird riyaziyyat dərsində izah olunan materialı yaxşı başa düşür və asanlıqla yadda saxlayır, lakin öyrəndiyini tez unudur.

Müəllim **ən çox** hansı fəaliyyətdən istifadə edərək şagirdə öyrəndiyi materialı uzun müddət yadında saxlamasına kömək edəcək?

ა) Müəllim şagirdlərə həyat nümunələrindən istifadə edərək yeni məlumatı bir-birilərinə izah etmələrini təklif etməlidir.

ბ) Müəllim şagirdə riyazi əməllərin yerinə yetirilmə qaydalarını əzbərləməyi tapşırmalıdır.

გ) Müəllim yazı taxtasında misallar yazmalı və şagirdlərdən dərslikdəki uyğun paraqrafı təkrarlamağı xahiş etməlidir.

დ) Müəllim şagirdə fərdi dərs təyin etməli və materialı yenidən izah etməlidir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 30**

Xüsusi təhsilə ehtiyacı olan şagirdin sensor inteqrasiya pozuntusu var. O, dərs zamanı stulda hərəkət edir və sinif yoldaşlarının diqqətini çəkir. Şagird stulda hərəkət etməyə başladıqda, müəllim ondan dayanmasını və dərs prosesinə qoşulmasını xahiş edir.

Müəllimin davranışı:

ა) **Doğrudur,** çünki sinifdə bütün şagirdlər davranış qaydalarına riayət etməlidir. Xüsusi təhsilə ehtiyacı olan şagird də qaydalara tabe olmalıdır ki, digər şagirdlər ondan nümunə götürüb oxşar davranışları təkrarlamasınlar.

ბ) **Doğru deyil,** çünki hər dəfə problemli davranışla müəllimin diqqətini çəkmək xüsusi təhsilə ehtiyacı olan şagirdə təlim prosesinə mane olmaq və dərsi pozmaq imkanı verir.

გ) **Doğrudur,** çünki problemli davranışa diqqəti vurğuladıqda şagird öz davranışını müşahidə edir, daha çox məsuliyyətlə yanaşır və özünüidarə bacarığı inkişaf edir.

დ) **Doğru deyil,** çünki şagirdin hərəkəti diqqətini cəmləməyə kömək edə bilər və hərəkətin dayandırılmasının tələb edilməsi ilə yaranan həyəcan ona dərsə qoşulmağa mane olur.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 31**

Xüsusi müəllim xüsusi təhsilə ehtiyacı olan şagirddə sözün fonetik təhlili və sintezi bacarıqlarının inkişaf etdirilməsinə kömək etməyi qarşısına məqsəd qoydu.

Müəllimin sadalanan fəaliyyətlərindən hansı sözün fonetik analizi və sintezi bacarıqlarının inkişaf etdirilməsi üçün şagirdə kömək edəcək?

ა) Müəllim şagirdə hər hansı söz dedi, ondan mətndə həmin sözü axtarmağı və markerlə altından xətt çəkməyi xahiş etdi.

ბ) Müəllim sözü şagirdə heca-heca oxudu və hərəkət edən əlifba ilə onu tərtib etməyi xahiş etdi.

გ) Müəllim şagirddən kartda yazılan sözləri oxumasını və onları eyni ardıcıllıqla deməsini xahiş etdi.

დ) Müəllim şagirdə cümlə oxudu və ondan həmin sözlərdən istifadə edərək yeni cümlələr fikirləşməsini xahiş etdi.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 32**

* Tapşırığın davamına növbəti səhifədə baxın

Xüsusi təhsilə ehtiyacı olan şagirdin valideyni hesab edir ki, övladının öyrənmə nəticələri yaxşılaşıb və o, xüsusi təhsilə ehtiyacı olan şagird statusunun ləğv edilməsini tələb edir.

Aşağıda sadalananlardan hansı xüsusi təhsilə ehtiyacı olan şagird statusunun ləğv edilməsi prosedurunu düzgün əks etdirir?

ა) Valideyn şagirdin diaqnozuna yenidən baxılması üçün hər hansı reabilitasiya mərkəzinə müraciət edə bilər. Mərkəzin mütəxəssisi tərəfindən şagirdin diaqnozu ləğv ediləcəyi halda, valideyn bu qiymətləndirməni məktəbə təqdim etməlidir və bunun əsasında məktəb rəhbərliyi şagirdin xüsusi təhsilə ehtiyacı olan şagird statusunu ləğv etməyə borcludur.

ბ) Valideyn övladının xüsusi təhsilə ehtiyacı olan şagird statusunun ləğv edilməsi üçün Fərdi təlim planı komandasına müraciət edə bilər. Fərdi təlim planı komandası iclas keçirməli, məsələni müzakirə etməli və zəruri halda şagirdin xüsusi təhsilə ehtiyacı olan şagird statusunu ləğv etməlidir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

გ) Valideyn övladının xüsusi təhsilə ehtiyacı olan şagird statusunun ləğv edilməsi üçün məktubla Gürcüstanın Elm və Təhsil nazirliyinə müraciət edə bilər. Bunun əsasında nazirlik şagirdlərin bazasında bu konkret şagirdin xüsusi təhsilə ehtiyacı olan şagird statusunu ləğv edir.

დ) Valideyn övladının xüsusi təhsilə ehtiyacı olan şagird statusunun ləğv edilməsi ilə əlaqədar məktubla məktəb rəhbərliyinə müraciət edə bilər. Rəhbərliyin müraciəti əsasında isə psixo-təhsil qiymətləndirmə və məsləhət mütəxəssisi şagirdin qiymətləndirmə nəticələrinə əsasən statusun ləğv edilməsinin zəruri olub-olmadığını müəyyən edir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 33**

Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin fənn üzrə fərdi məqsədlərə nail olmasının monitorinqini keçirmək istəyir.

Sadalanan hansı fəaliyyət/ fəaliyyətlər xüsusi təhsilə ehtiyacı olan şagirdin fənn üzrə fərdi məqsədlərə nail olmasının monitorinqi zamanı müəllimə kömək edəcək?

I. Müəllim şagirdin hər bir akademik semestrin sonunda hansı bilikləri əldə etdiyini standartla müəyyən edilmiş anlayışlarla qiymətləndirməli və ətraflı şəkildə təsvir etməlidir.

II. Müəllim standartlaşdırılmış testlərdən istifadə edərək şagirdin bu və ya digər bacarığının inkişaf etdirilməsi baxımından ilin sonunda tərəqqisini müəyyən etməlidir.

III. Müəllim kurikuluma əsaslanan testlərlə Milli tədris planının minimal səddinin keçilməsi baxımından öz fənnində şagirdin necə irəliləyiş göstərdiyini müəyyən etməlidir.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 34**

Dərsdə xüsusi təhsilə ehtiyacı olan şagirdi fərdi assistent müşayiət edir. Fənn müəllimi tez-tez assistentə töhmət verir, çünki o, bəzi fəaliyyətlərin yerinə yetirilməsi üçün xüsusi təhsilə ehtiyacı olan şagirdə kömək etmir.

Fənn müəlliminin davranışı :

ა) **Doğrudur,** çünki assistent həmişə xüsusi təhsilə ehtiyacı olan şagirdin yanında olmalıdır  və hər bir tapşırığın yerinə yetirilməsi üçün ona kömək etməlidir.

ბ) **Doğru deyil,** çünki assistent şagirdə yerinə yetirə biləcəyi fəaliyyətlər üzərində müstəqil olaraq işləmə imkanı verməlidir.

გ) **Doğrudur,** çünki əgər şagirdə assistent lazımdırsa, bu, avtomatik olaraq, onun hər bir tapşırığın yerinə yetirilməsində köməyə ehtiyacı olması deməkdir.

დ) **Doğru deyil,** çünki əgər assistent hər bir tapşırığın yerinə yetirilməsində şagirdlə birlikdə iştirak etməsə, şagird tapşırığın yerinə yetirilməsindən boyun qaçırmağa çalışacaq.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 35**

Müəllim təbiət dərsində universal dizayn prinsiplərinə riayət edərək şagirdləri „Yaşayış mühiti“ adlı yeni mövzu ilə tanış etməyi qarşısına məqsəd qoydu.

Müəllim tərəfindən istifadə olunan öyrənmə fəaliyyətlərindən **ən çox** hansı universal dizaynın prinsiplərinə uyğun gəlir?

ა) Müəllim şagirdlərə yeni mövzunu izah edir, müxtəlif heyvanların həyat tərzi və yaşayış mühiti haqqında misallar gətirir. Dərsin sonunda izah edilən mövzu ilə əlaqəli suallar verir və düzgün cavab verdikləri üçün şagirdləri tərifləyir. Sonda dərsin xoşlarına gəlib-gəlmədiyini soruşur.

ბ) Müəllim şagirdlərə oxumaq üçün keçiləcək mövzu ilə əlaqəli mətn verir. Xüsusi təhsilə ehtiyacı olan şagirdə sadələşdirilmiş mətn verir və yaxşı oxuduğu üçün onu tərifləyir. Oxuma prosesində isə ona detalları tək-tək izah edir. Dərsin sonunda o, dərsi ümumiləşdirir və əsas nəticələri vurğulayır.

გ) Müəllim şagirdlərə qrup tapşırığı verir: onlara heyvanların siyahısını paylayır və hər birinin yaşayış mühitini təsvir etmələrini, eyni zamanda nə üçün bu yerdə yaşadıqlarını sübut etmələrini xahiş edir. Qrupdan bir şagird qrup işini oxuyur və müəllim onlardan ən yaxşısını mükafatlandırır.

დ) Müəllim şagirdlərə heyvanlar və onların yaşayış mühiti haqqında videolar göstərir. Onlardan yaşayış mühitinin modelini yaratmağı, resurs seçməyi və modeli təqdim etməyin formasını seçməyi xahiş edir. İş zamanı lazım gəldikcə hər bir şagirdə kömək edir. Sonda müəllim hər bir işin güclü tərəfini qeyd edir.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20

21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 36**

Sinif yoldaşlarının aşağıda sadalanan hansı fəaliyyəti/fəaliyyətləri onlarla ünsiyyət qurmaqda eşitmə pozuntusu olan xüsusi təhsilə ehtiyacı olan şagirdə kömək edəcək?

I. Sinif yoldaşları xüsusi təhsilə ehtiyacı olan şagirdə məzmunu başa düşmədiyi cümlə və təlimatları tez-tez təkrar edirlər.

II. Sinif yoldaşları xüsusi təhsilə ehtiyacı olan şagirdlə növbə ilə söhbət edirlər və şagirdə onları görmə imkanı verirlər.

III. Sinif yoldaşları xüsusi təhsilə ehtiyacı olan şagirdlə ünsiyyət zamanı onunla razılaşdırılmış vizual işarələrdən istifadə edirlər.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

Təlimat

Açıq tipli tapşırıq verilmiş mövzu haqqında arqumentli müzakirə tələb edir. Tapşırığın şərtini və sualını diqqətlə oxuyun. Nəzərə alın ki, cavabınız konkret və suala uyğun olmalıdır.

Cavabınızı cavablar vərəqində tapşırığın uyğun nömrəsi boyunca xüsusi olaraq ayrılmış yerə yazın. Tapşırıq üçün nəzərdə tutulmuş sahədən kənara çıxmayın.

*Açıq tipli hər tapşırıq boyunca maksimal bal göstərilmişdir.*

*Nəzərə alın: açıq tipli tapşırığı cavablandırarkən diskriminativ terminlərdən istifadə etsəniz, bir bal itirəcəksiniz.*

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 37**

*Maksimal bal – 3*

Xüsusi təhsilə ehtiyacı olan şagird üçün qoyulan məqsəd onun müəyyən bilik və bacarıq əldə etməsinə, müvafiq davranış və ya münasibətin formalaşmasına xidmət edir. Bunun üçün məqsəd mütləq düzgün formalaşdırılmalıdır. Məqsədin „SMART“ meyarlarının nəzərə alınması ilə formalaşdırılması mümkündür.

– „SMART“ meyarlarının nəzərə alınması ilə formalaşdırılan məqsədin bir xüsusiyyətini təsvir edin.
– Məqsədin formalaşdırılması zamanı təsvir etdiyiniz xüsusiyyətin nəzərə alınmasının nə üçün vacib olduğunu sübut edin.

***Cavabı cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca yazın.***

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 38**

*Maksimal bal – 3*

Dil və nitqin inkişaf pozuntusu haqqında deyilən mülahizələrin əksəriyyəti mifdir. Bu da bu problemin öhdəsindən gəlmək üçün düzgün strategiyaların seçilməsini çətinləşdirir.

Aşağıda dil və nitqin inkişaf pozuntusu haqqında deyilən mülahizələri təqdim edirik.

1. Uşağın dil və nitqinin inkişaf pozuntusuna ikidilli mühit səbəb ola bilər.
2. Uşaqda daha çox reseptiv dil çətinlikləri deyil, ekspressiv dilin inkişaf pozuntusu ola bilər.

– Təqdim olunan mülahizələrdən həqiqəti əks etdirəni seçin və verilən problemin aradan qaldırılmasına kömək edəcək bir strategiya təsvir edin.

– Cavabınızı əsaslandırın.

***Cavabı cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca yazın.**

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 39**

*Maksimal bal - 3*

Yazı bacarığının öyrənilməsi müəyyən vaxt və ustalaşma tələb edir. İbtidai sinif şagirdləri, xüsusilə də xüsusi təhsilə ehtiyacı olanlar yazı bacarığını yaxşı mənimsəyənədək çətinlik çəkirlər. Yazı bacarığının mənimsənilməsi üçün öyrənmə prosesinin xüsusi olaraq planlaşdırılması lazımdır, bunun üçün də xüsusi müəllim mütləq bilməlidir ki, xüsusi təhsilə ehtiyacı olan şagirdin yazı bacarığını yaxşı mənimsəməsi üçün konkret hansı bacarıqların inkişafı üzərində işləsin.

- Yazının mənimsənilməsi üçün bir effektiv strategiya təsvir edin.
- Seçdiyiniz strategiyanın konkret olaraq hansı bacarığın inkişafına dayandığını və şagirdin yazı bacarığını mənimsəməsinə necə kömək etdiyini izah edin.

***Cavabı cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca yazın.***

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a

**Tapşırıq N 40**

* Tapşırığın davamına növbəti səhifədə baxın

*Maksimal bal – 3*

*İncəsənət dərsində şagirdlərdən rəssamlıqda müxtəlif cərəyanların müzakirə edilməsi, rəssamlar haqqında məlumat toplanması və onların işinin bir-biri ilə müqayisəsi tələb olunur. Sinfə öz seçdikləri rəssamın yaradıcılığı haqqında mülahizə yürütdükləri yazı işi yaradılması tapşırıldı. Müəllim tərəfindən müxtəlif strategiyaların istifadə olunmasına baxmayaraq, xüsusi təhsilə ehtiyacı olan şagird incəsənətdə Milli Tədris Planı ilə müəyyən olunan materialı mənimsəyə, fikrini yazılı olaraq çatdıra bilmir.*

Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin mövcud səviyyəsini təyin etdi və onun üçün Milli Tədris Planının modifikasiya olunmasına qərar verdi.

| Komponent | Dəyişməz qalır | Dəyişir |
|---|---|---|
| Mövzu | | |
| Öyrənilәsi mövzu | | |
| Anlayış | | |
| Təqdimat forması | | |
| Resurs | | |
| Nəticə | | |

- Verilmiş cədvəldən şagird üçün Milli Tədris Planının modifikasiya olunması məqsədi ilə müəllimin dəyişdirilməli olduğu iki komponent seçin.
- Cavabınızı əsaslandırın.

***Cavabı cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca yazın.***

1 2 3 4 5 6 6a 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20
21 22 23 24 25 26 27 28 29 30 31 32 32a 33 34 35 36 37 38 39 40 40a